# “AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

31 dekabr 2013-cü il tarixinə bitən il üzrə
**Maliyyə Hesabatları**

# "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2013-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA HESABAT | 1 |
| MÜSTƏQİL AUDİTOR RƏYİ | 2 |
| 31 DEKABR 2013-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Məcmu mənfəət haqqında hesabat | 3 |
| Maliyyə vəziyyəti haqqında hesabat | 4 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 5 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 6 |

## “AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2013-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİ

Rəhbərlik “Azərbaycan İstilik Elektrik Stansiyası” Məhdud Məsuliyyətli Cəmiyyətinin (“Şirkət”) 31 dekabr 2013-cü il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə bitən il üzrə əməliyyatlarının nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitaldakı dəyişiklikləri düzgün əks etdirən maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) müvafiq olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Müvafiq mühasibat uçotu siyasətinin seçilməsi və ardıcıl şəkildə tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Şirkətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-ın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- Şirkətin fasiləsizlik prinisipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Şirkət daxilində sağlam və effektiv daxili nəzarət sisteminin planlaşdırılması, tətbiqi və saxlanılmasına;
- Şirkətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə, maliyyə vəziyyətinin istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Şirkətin maliyyə hesabatlarının MHBS-a uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılmasına;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq yerli mühasibat uçotu qeydlərinin aparılmasına;
- Şirkətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə; və
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Şirkətin 31 dekabr 2013-cü il tarixinə bitən il üzrə maliyyə hesabatlarının buraxılması rəhbərlik tərəfindən 19 iyun 2014-cü il tarixində təsdiqlənmişdir.

"Deloitte & Touche MMC"
"Landmark" Biznes Mərkəzi
Nizami küç. 96
Bakı, AZ1010
Azərbaycan

Tel: +994 (12) 404 1210
Fax: +994 (12) 404 1211
www.deloitte.az

## MÜSTƏQİL AUDİTOR RƏYİ

"Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarına:

Biz "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyəti ("Şirkət") 31 dekabr 2013-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və 31 dekabr 2013-cü il tarixdə bitən il üzrə mənfəət və ya zərərə və məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə, mühüm mühasibat uçotu siyasətlərinin xülasəsi və digər izahedici məlumatlardan ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

*Rəhbərliyin maliyyə hesabatları ilə bağlı məsuliyyəti*

Rəhbərlik Maliyyə Hesabatları üzrə Beynəlxalq Standartlara müvafiq olaraq bu maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi, eləcə də saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin qənaətinə görə zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

*Auditorun məsuliyyəti*

Bizim məsuliyyətimiz apardığımız auditə əsasən bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir.

Biz auditi Beynəlxalq Audit Standartlarına müvafiq olaraq həyata keçirdik. Bu standartlar bizdən etik tələblərə riayət etməyimizi, eləcə də maliyyə hesabatlarında mühüm təhriflərin olmadığına kifayət qədər əminliyin əldə edilməsi məqsədi ilə auditi planlaşdırmağımızı və həyata keçirməyimizi tələb edir.

Audit zamanı maliyyə hesabatlarındakı məbləğ və açıqlamalara dair audit sübutlarının əldə olunması ilə bağlı prosedurlar yerinə yetirilir. Prosedurlar auditorun mühakiməsi, o cümlədən maliyyə hesabatlarında saxtakarlıq yaxud səhv nəticəsində baş verməsindən asılı olmayaraq mühüm təhriflər ilə bağlı risklərin qiymətləndirilməsindən asılı olaraq seçilir. Belə risk qiymətləndirmələrini həyata keçirərkən auditor şəraitə uyğun olaraq audit prosedurlarının planlaşdırılması məqsədilə müəssisənin daxili nəzarət sistemini, həmin sistemin effektivliyi barədə rəy bildirmək üçün deyil, müəssisə tərəfindən maliyyə hesabatlarının düzgün hazırlanması və təqdim edilməsi ilə bağlı fikir formalaşdırır. Auditə, həmçinin, rəhbərlik tərəfindən tətbiq edilən mühasibat uçotu qaydalarının müvafiqliyinin və irəli sürülmüş mühasibat hesablamalarının əsaslı olduğunun qiymətləndirilməsi, habelə maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Hesab edirik ki, audit rəyimizi bildirmək üçün əsas verən yetərli və uyğun audit sübutu əldə etmişik.

*Rəy*

Fikrimizcə, maliyyə hesabatları Şirkətin 31 dekabr 2013-cü il tarixinə olan maliyyə vəziyyətini və həmin tarixə bitən il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq olaraq bütün əhəmiyyətli hallarda düzgün əks etdirir.

19 iyun 2014-cü il
Bakı, Azərbaycan Respublikası

Deloitte adı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının qanunvericiliyi əsasında qeydiyyata alınmış və məsuliyyəti onun iştirakçıları tərəfindən verilən təminatlarla məhdudlaşan Deloitte Touche Tohmatsu Limited şirkətinə və onun üzv şirkətlərindən ibarət olan şəbəkəyə aid ayrı və müstəqil hüquqi şəxslərdən birinə və ya hər hansına məxsusdur. Deloitte Touche Tohmatsu və ona üzv şirkətlərin hüquqi strukturunun ətraflı təsviri üçün www.deloitte.com/about internet səhifəsinə müraciət edin. "Deloitte MDB"-nin hüquqi forması haqqında məlumat almaq üçün isə http://www.deloitte.com/ru/about internet səhifəsinə daxil ola bilərsiniz.

© 2014 "Deloitte & Touche" MMC. Bütün hüquqlar qorunur.

## 31 DEKABR 2013-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MƏCMU MƏNFƏƏT HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2013-cü il tarixinə bitən il | 31 dekabr 2012-ci il tarixinə bitən il |
|---|---|---|
| Enerji satışı | 139,221 | 143,846 |
| Xərclər | | |
| Yanacaq | (98,334) | (102,540) |
| Köhnəlmə | (32,325) | (25,801) |
| Təmir və texniki xidmət | (12,723) | (12,127) |
| İşçi heyətinin saxlanılması xərcləri | (5,949) | (6,345) |
| Mənfəət vergisindən başqa digər vergilər | (1,696) | (992) |
| Xammal və materiallar | (911) | (711) |
| Mal-material ehtiyatlarının silinməsi | (66) | (124) |
| Ticarət və digər debitor borcların dəyərsizləşməsi üçün ehtiyatda dəyişiklik | (132) | 46 |
| Digər əməliyyat xərcləri | (2,076) | (1,782) |
| *Əməliyyat zərəri* | (14,991) | (6,530) |
| Maliyyə xərcləri, xalis | (2,105) | (2,542) |
| Xarici valyuta mübadiləsindən gəlir, xalis | 32 | 15 |
| *Mənfəət vergisindən əvvəl zərər* | (17,064) | (9,057) |
| Mənfəət vergisi gəliri | 3,188 | 1,627 |
| **CƏMİ İL ÜZRƏ MƏCMU ZƏRƏR** | **(13,876)** | **(7,430)** |

## "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2013-CÜ İL TARİXİNƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2013-cü il | 31 dekabr 2012-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Əmlak, tikili və avadanlıq | 499,284 | 518,447 |
| Əmlak, tikili və avadanlığa görə avanslar | 7,549 | 63 |
| *Cəmi uzunmüddətli aktivlər* | 506,833 | 518,510 |
| *Qısamüddətli aktivlər* | | |
| Mal-material ehtiyatları | 14,522 | 15,160 |
| Əvəzləşdirilən ƏDV | 2,975 | 2,411 |
| Ticarət və digər debitor borcları | 104,218 | 98,841 |
| Qabaqcadan ödənişlər | 540 | 785 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 1,011 | 1,010 |
| *Cəmi qısamüddətli aktivlər* | 123,266 | 118,207 |
| **CƏMİ AKTİVLƏR** | **630,099** | **636,717** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| *Kapital* | | |
| Nizamnamə kapitalı | 5,108 | 5,108 |
| Əlavə ödənilmiş kapital | 56,110 | 45,000 |
| Bölüşdürülməmiş mənfəət | 262,997 | 276,873 |
| *Cəmi kapital* | 324,215 | 326,981 |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Ssuda və borc vəsaitləri | 103,460 | 112,694 |
| Təxirə salınmış vergi öhdəlikləri | 31,212 | 35,143 |
| İstismardan çıxarma üzrə öhdəlik | 11,843 | 13,098 |
| *Cəmi uzunmüddətli öhdəliklər* | 146,515 | 160,935 |
| *Qısamüddətli öhdəliklər* | | |
| Ssuda və borc vəsaitləri | 17,041 | 17,545 |
| Ticarət və digər kreditor borcları | 24,148 | 15,667 |
| Mənfəət vergisi öhdəliyi | 6,435 | 5,699 |
| Mənfəət vergisindən başqa digər vergi öhdəlikləri | 111,745 | 109,890 |
| *Cəmi qısamüddətli öhdəliklər* | 159,369 | 148,801 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | 305,884 | 309,736 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **630,099** | **636,717** |

# 31 DEKABR 2013-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2012-ci il tarixinə qalıq** | **5,108** | **45,000** | **284,303** | **334,411** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (7,430) | (7,430) |
| **31 dekabr 2012-ci il tarixinə qalıq** | **5,108** | **45,000** | **276,873** | **326,981** |
| Əlavə ödənilmiş kapital | - | 11,110 | - | 11,110 |
| İl üzrə cəmi məcmu zərər | - | - | (13,876) | (13,876) |
| **31 dekabr 2013-cü il tarixinə qalıq** | **5,108** | **56,110** | **262,997** | **324,215** |

# 31 DEKABR 2013-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2013-cü il tarixinə bitən il | 31 dekabr 2012-ci il tarixinə bitən il |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN PUL AXINLARI:** | | |
| Müştərilərdən əldə edilmiş vəsaitlər | 134,904 | 146,040 |
| İşçilərə və təchizatçılara ödənişlər | (113,296) | (130,593) |
| Mənfəət vergisindən başqa vergi ödənişləri | (2,787) | (1,828) |
| Əməliyyatlardan yaranan pul vəsaitləri | 18,821 | 13,619 |
| Ödənilmiş faiz | (2,366) | (1,548) |
| **Əməliyyat fəaliyyətindən əldə olunan xalis pul vəsaitləri** | **16,455** | **12,071** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL AXINLARI:** | | |
| Əmlak, tikili və avadanlıq üçün ödənişlər | (7,419) | (337) |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | **(7,419)** | **(337)** |
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN PUL AXINLARI:** | | |
| Borc vəsaitlərinin qaytarılması | (9,066) | (11,709) |
| **Maliyyə fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | **(9,066)** | **(11,709)** |
| **NAĞD PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA) / ARTIM** | **(30)** | **25** |
| **İLİN ƏVVƏLİNDƏ NAĞD PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **1,010** | **970** |
| Valyuta məzənnələrində dəyişikliklərin xarici valyutada saxlanılan nağd pul və pul vəsaitlərinin ekvivalentlərinə təsiri | 31 | 15 |
| **İLİN SONUNDA PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **1,011** | **1,010** |

31 dekabr 2013-cü il tarixinə bitən il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda göstərilən məbləğlərə aşağıdakı nağdsız əməliyyatlar daxil edilmir:

- Mənfəət vergisindən başqa vergilər üzrə 4,915 min AZN (2012-ci ildə: 4,965 min AZN) məbləğində öhdəliklərin xüsusi ƏDV depozit hesabındakı vəsaitlərdən ödənilməsi.